

# Sadıq Qarayev yaradıcılığında
# Qarabağ azadlığı: tarixi zəfərin izi ilə

Azərbaycan xalqı tarix boyu azadlıq və ədalət uğrunda mübarizə aparıb və aparmaqdadır. 2020- ci ildə əldə etdiyimiz Vətən müharibəsindəki Zəfər bu mübarizənin ən parlaq nümunəsidir. Bu zəfər birliyimizin, qəhrəman oğullarımızın igidliyinin və xalqın qəlbindəki Vətən sevgisinin təntənəsidir. O, günlərdə hər bir zərbaycanlı qəlbən bir orduya çevrildi, çünki Zəfər həm də milli ruhun gücüdür. Azərbaycan ədəbiyyatı da hər zaman xalqın ağrılarını, sevinclərini, qürurunu və azadlıq mübarizəsini özündə yaşadan güclü bir ruh daşıyıcısı olmuşdur Bu ruhun çağdaş daşıyıcılarından biri, nəsillərə tarixi zəfərin izini ötürən və yaşadan Sadıq Qarayevdir.

Əvvəla qeyd edim ki, Sadıq müəllim ixtisasca bioloqdur, alimdir, lakin o, bədii yaradıcılıqla məşğuldur, qələmə aldığı əsərlər də həm dedektiv, həm fəlsəfi, həm bədii, həm də elmi mövzudadır.

Lakin bir məsələni xüsusi olaraq qeyd etmək istəyirəm ki, Sadıq Qarayevin əsərlərində Qarabağ mövzusu qırmızı xətlə keçir, hətta onun yaradıcılığında Qarabağ mövzusu təkcə bir torpaq dərdi kimi deyil, həm də bir milli kimlik, şəxsiyyət, tarixi yaddaş savaşı kimi təqdim olunur. Müəllifin "N saylı qəhrəmanlıq" adlı əsərinin mövzusu da məhz 44 günlük Vətən müharibəsi və bu müharibədə ön, arxa cəbhənin təsviri, xalq - dövlət - ordu - Ali Baş Komandan vəhdətinin gücü, birliyi, Dəmir Yumruğun mahiyyəti və əzmi, N sayda qəhrəmanların və görünməyən N sayda qəhrəmanlıqları işıqlandırılmışdır. Əsərdə, həmçinin Dəmir yumruğun güc, birlik və ədalət rəmzi olması tərənnüm edilir və qeyd edilir ki, "Dəmir yumruq" ifadəsi 2020 - ci il Vətən müharibəsi zamanı zəfərin, qürurun və yenilməz ruhun təcəssümünə çevrildi.

Əsər 3 fəsildən ibarətdir. I fəsil "Müharibə tumurcuqları" adlanır, əsərin bu fəsli Ulu Öndərin "Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir"- devizi ilə başlayır və başlığın adı "And" adlanır. Bu fəsildə müharibənin səbəbləri, erməni daşnaklarının xalqımızın başına gətirdikləri vəhşiliklər, ard - arda baş verən soyqırımlar, torpaqlarımızın işğalı və I Qarabağ müüharibəsi əks olunmuşdur. Həmin bu fəsildə Aprel və Tovuz döyüşlərində əsgər və zabitlərimizin qəhrəmanlığından, Azərbaycan xalqının şəhidlik məktəbindən geniş söz açılmışdır. Əsərdə Ali Baş komandanın bədii nəsrdə ilk dəfə olaraq obrazı yaradılmış, müharibədən əvvəl və müharibə dövründə düşüncələri. ideyaları, fəaliyyətindən bəhs olunmuşdur. Müəllif I fəsli həm də müharibə tumurcuqlarının yetişməsinə işarə olaraq əsərin fəslini "Müharibə tumurcuqları" adlandırmışdır. Həmin bu fəsildə erməni daşnaklarının obrazlarının dili ilə onların məkrli siyasətlərini sanki ilk dəfədir ki, eşidib, tanış oluruq. Baş nazir Paşinyanın yallı getmə səhnəsindəki qürurunun, Qarabağın hüquqi baxımdan müstəqil olacağına inam, özlərini bu fikrə inandırmaqları, hətta "Artsax Ermənistandır! Vəssalam!" ifadələrinin əsərdə əks olunması, əlbəttə ki gələcək nəsil üçün tarixi zəfərin mükəmməl romanı kimi unudulmayacaq və əl - əl gəzəcək kitablar sırasında olacaqdır!

Əsərin "N saylı qəhrəmanlıq" adlı II fəslində döyüş planlamalarından söhbət açılır. 30 il ərzində möhkəmlənmiş rəşadətli Azərbaycan ordusunun qəhrəman əsgər və zabitlərinin şücaəti, şəhid və qazilərin döyüş yolu, göstərdikləri misilsiz qəhrəmanlıqlar, şücaətlər sənədli və real faktlar əsasında təsvir edilmişdir.

Əsərdə Şuşanın azad olunması, Cıdır düzündə Sərxoş qarğa rəqsilərinin Xarıbülbül festivalı ilə əvəz olunması və festivalın keçirilməsi ilə bağlı yaradılan bədii lövhələr təsvir olunubdur. Şəhidlərimizin ruhlarının yad edilməsi isə hər bir oxucunun ürəyini riqqətə gətirir. Romanda ilk dəfə olaraq Azərbaycançılıq məfkurəsinin mahiyyəti açıqlanır və III fəsil "Mövcudluğun səpələnməsi" adlanır. Oxucunu düşündürən əsas məsələ : "Mövcud olanların əksi içimizdə bir fərəh hissi yaratdı O, hiss nə idi? O, hiss bizim azərbaycançılıq məfkuremizin zəfəri idi" - deyə fikrinin açıqlanması və oxucuya çatdırılmsı əsərin əsas ideyalarından idi.

Sadıq Qarayev qələmə aldığı "N sayda qəhrəmanlıq" adlı əsəri ilə dərin bədii, fəlsəfi, siyasi müşahidələri əsasında hadisə, fakt və gerçəkliklərə orjinal münasibət formalaşdırır. Eyni zamanda, xalqımızın tarixi taleyinin, milli özünüdərk prosesinin ayrı - ayrı mərhələlərini, müharibə reallıqlarını, müharibədə Azərbaycan ordusunun yüksək peşəkarlığını, məhz xalqımıza məxsus ali dəyərləri ədəbi qəhrəmanlarının obrazına çevirə bilir. "Müharibə tumurcuqları", "N sayda qəhrəmanlıq", "Mövcudluğun səpələnməsi" adlı 3 fəsildən ibarət olan roman 44 günlük Zəfər tariximiz, müzəffər Ali Baş Komandanımızın hərbi - diplomatik məharəti, möhtəşəm qələbəmiz haqqında yaradılan dəyərli bədii - fəlsəfi salnamə kimi qiymətləndirilməyə layiq bədii əsərdir.

"N sayda qəhrəmanlıq" romanını müharibə salnaməsi də adlandırmaq düzgün olar. Deməklə olar ki, müharibənin heç bir detalı əsərdən kənarda qalmamışdır.

Əslində, Sadıq müəllimin yaradıcılığı və qələmə aldığı əsərlərin mövzusu bir çağırışdır - unutmamağa, Vətənə sadiq olmağa, azadlığı qorumağa çağırışdır! "N sayda qəhrəmanlıq" adlı kitabın hər vərəği sanki azad edilmiş torpaqların üzərində boy atan yeni həyatın, yeni dirçəlişin, yeni ədəbiyyatın müjdəçisidir. Sadıq Qarayev qələmə aldığı zəfər ruhlu əsərləri ilə tarixi Zəfərin izini yaşadır, bu zəfəri gələcək nəsillərə həm dərs, həm də qürur mənbəyi kimi təqdim edir. Bu əsərdə Qarabağ təkcə azad edilmiş torpaq deyil, həm də azad ruhun, əbədi Vətənin və zəfərin simvoludur!

Zəfər insanın mübarizəsinin, əzminin və inamının nəticəidir. Hər bir zəfərin arxasında böyük əmək, dözüm və fədakarlıq dayanır. Zəfər yalnız döyüş meydanında qazanılan qələbə deyil, həm də insanın öz qorxularına, çətinliklərinə və həyatın sınaqlarına qalib gəlməsidir.

Qarşıdan gələn Zəfərimiz mübarək! Zəfər simvollu əsərlərin ilk oxucusu olmaq arzusu ilə Tarixi zəfərin mübarəkdir, Vətən!



*Nurlana ƏLİYEVA,*
*Naxçıvan Dövlət Universitetinin*
*"Azərbaycan ədəbiyyatı"*
*kafedrasının müdiri,*
*dosent*